Azərbaycan Maarifçilər Assosiasiyası (AMA) 2020-ci il 20 iyun tarixində təsis edilmişdir.

Azərbaycan Maarifçilər Assosiasiyası (AMA) təhsil sahəsində ümumi məqsədlərə nail olmaq üçün bu sahədə çalışanların birgə fəaliyyətini əlaqələndirən birlikdir. AMA Respublikanın müxtəlif bölgələrində çalışan təhsil işçilərinin təşəbbüsü ilə təsis olunub. Assosiasiyanın tərkibində “Azərbaycan Maarifçilər Klubu” da fəaliyyət göstərir. Kluba Azərbaycanın hər bir bölgəsindən olan müəllim qoşula bilər. Kluba üzvlük ödənişsizdir.

Məqsədimiz ölkə ərazindinə fəaliyyət göstərən bütün təhsil işçiləri arasında əməkdaşlığın inkişafına, onların maarifləndirilməsinə dəstək verməK, təhsil işçilərini bir arada birləşdirən şəbəkələşməni gücləndirmək, vahid strukturlaşmış mexanizm və idarəetmə sistemi yaratmaq, yerli və Beynəlxalq səviyyədə Assosiasiya əlaqələrini və əməkdaşlıq imkanlarını qurmaqdır.

AMA regionalar üzrə koordinatorlar tərəfindən idarə olunur. Koordinatorlar qrupu 1 il müddətinə seçilir. Ümumi iclaslarda çıxarılan qərarlar bölgələr üzrə olan koordinatorlar tərəfindən bütün üzvlərə çatdırılır.

Hazırda AMA-nın koordinatorlar tərəfindən yaradılan aşağıdakı təhsil layihələri aktiv fəaliyyət göstərir:

- “Mən bir müəlliməm”
- “Yumruca Kukla” Uşaq İnkişaf Platforması
- “AMA Təqaüdü”
- “Təhsil Könüllüləri” Təcrübə proqramı

AMA aşağıdakı dəyərlərə inanan və onları paylaşan hər bir təhsil işçisini üzv qəbul edir:
1. Sevgi - irqindən, cinsindən, vəzifə və statusundan asılı olmayararaq hər kəsə sevgi ilə yanaşmaq;
2. Təhsil - hər yerdə və hər zaman təhsili əsas tutmaq;
3. Toplum - hər bir işdə toplumun, cəmiyyətin inkişafını düşünmək;
4. Dürüstlük - özünə və digərlərinə qarşı dürüst olmaq.

Qeyd edək ki, Assosiasiyamız Azərbaycan Respublikası Təhsil Nazirliyi başda olmaqla bir sıra qurumlarla əməkdaşlıq edir.

Azərbaycan Maarifçilər Assosiasiyası

2020

AMA

sevgi ~ təhsil ~ toplum ~ dürüstlük